"Terrorizmin maliyyələşdirilməsi ilə mübarizə haqqında" Beynəlxalq Konvensiyaya Azərbaycan Respublikasının qoşulması barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. Azərbaycan Respublikası 1999-cu il dekabrın 9-da Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi tərəfindən qəbul edilmiş "Terrorizmin maliyyələşdirilməsi ilə mübarizə haqqında" Beynəlxalq Konvensiyaya **qoşulsun.**

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV

Bakı şəhəri, 1 oktyabr 2001-ci il
№ 174-IIQ

## Terrorizmin maliyyələşdirilməsi ilə mübarizə haqqında

## BEYNƏLXALQ KONVENSİYA

### PREAMBULA

Bu Konvensiyanın iştirakçısı olan dövlətlər,

Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin beynəlxalq sülhün və təhlükəsizliyin qorunması, dövlətlər arasında mehriban qonşuluq və dostluq münasibətlərinin və əməkdaşlığın təşviqi ilə bağlı məqsəd və prinsiplərini nəzərə alaraq,

bütün dünyada terrorizm hərəkətlərinin, özünün hər cür forma və təzahüründə genişlənməsindən son dərəcə narahat olaraq,

Birləşmiş Millətlər Təşkilatının əlli illiyi münasibəti ilə Baş Assambleyanın 1995-ci il 24 oktyabr tarixli, 50/6 nömrəli qətnaməsində ehtiva olunmuş Bəyannaməyə istinad edərək,

həmçinin Baş Assambleyanın 1994-cü il 9 dekabr tarixli, 49/60 nömrəli qətnaməsi və ona əlavə də daxil olmaqla, - həmin əlavə beynəlxalq terrorizmin ləğv edilməsi üzrə tədbirlər haqqında Bəyannamədən ibarətdir; Birləşmiş Millətlər Təşkilatının üzvü olan bütün dövlətlər həmin Bəyannamədə təntənəli surətdə təsdiq etmişlər ki, onlar harada və kim tərəfindən törədilməsindən asılı olmayaraq, bütün terrorizm hərəkətlərini, metodlarını və təcrübəsini, o cümlədən də dövlətlər və xalqlar arasındakı dostluq münasibətləri üçün təhlükə törədən və dövlətlərin ərazi bütövlüyü və təhlükəsizliyini təhdid edən hərəkətləri cinayət əməli və haqq qazandırılması mümkün olmayan hərəkətlər kimi qeyd-şərtsiz pisləyirlər, bu məsələyə dair bütün müvafiq qətnamələrinə istinad edərək,

beynəlxalq terrorizmin ləğv edilməsi üzrə tədbirlər haqqında Bəyannamədə həmçinin dövlətlərə, bu məsələnin bütün aspektlərini əhatə edən hərtərəfli hüquqi çərçivələrin olmasını təmin etmək məqsədi ilə, bütün forma və təzahürlərdə terrorizmin qabaqlanması, qarşısının alınması və ləğv edilməsi haqqındakı mövcud beynəlxalq hüquq müddəalarının tətbiq dairəsinin təcili qaydada icmalmı aparmağın təklif edildiyini vurğulayaraq,

Baş Assambleyanın 1996-cı il 17 dekabr tarixli, 51/210 nömrəli qətnaməsinin 3-cü bəndinin (f) yarımbəndinə (burada Assambleya bütün dövlətləri müvafiq daxili tədbirlər görmək vasitəsi ilə terrorçuların və terror təşkilatlarının maliyyələşdirilməsinə, - bu cür maliyyələşdirilmənin bilavasitə yaxud bilavasitə, -xeyriyyə, ictimai və ya mədəni məqsədlər güdən və ya güddüklərini iddia edən yaxud özləri də qeyri-qanuni silah göndərilməsi, narkotiklərin qanunsuz dövriyyəsi və hədələməklə pul qoparmaq, o cümlədən də ayrı-ayrı şəxslərdən terrorçuluq fəaliyyətinin maliyyələşdirilməsi məqsədləri ilə istifadə edilməsi kimi yasaq edilmiş fəaliyyət növlərinə cəlb olunmuş təşkilatlar vasitəsi ilə həyata keçirilməsindən asılı olmayaraq, - mane olmaq və bunun qarşısını almaq üçün tədbirlər görməyə və xüsusən də münasib olduqda, terror məqsədləri üçün nəzərdə tutulduğu şübhə doğuran vəsaitlərin hərəkətlərinə mane olmaq və onun qarşısını almaqdan ötrü tənzimləmə tədbirləri görülməsi məsələsini, bu zaman qanuni kapitalın hərəkət azadlığını qətiyyən pozmadan və belə vəsaitlərin beynəlxalq hərəkəti barədə informasiya mübadiləsini fəallaşdırmaqla nə'zərdən keçirməyə çağırmışdır) istinad edərək,

həmçinin Baş Assambleyanın 1997-ci il 15 dekabr tarixli, 52/165 nömrəli qətnaməsinə, - qətnamədə Assambleya dövlətləri ələlxüsus özünün 1996-cı il 17 dekabr tarixli, 51/210 nömrəli qətnaməsinin 3-cü bəndinin (a)-(f) yarımbəndlərində ifadə edilmiş tədbirləri~~n həy~~ata keçirilməsi məsələsinə baxmağa çağırmışdır, - istinad edərək,

daha sonra Baş Assambleyanın 1998-ci il 8 dekabr tarixli, 53/108 nömrəli qətnaməsinə, - həmin qətnamədə Assambleya qərara almışdır ki, Baş Assambleyanın 1996-cı il 17 dekabr tarixli, 51/210 nömrəli qətnaməsi ilə təsis edilmiş Xüsusi Komitə Terrorizmin maliyyələşdirilməsi ilə mübarizə haqqında müvafiq mövcud beynəlxalq sənədləri tamamlayacaq Beynəlxalq Konvensiya layihəsini işləyib hazırlamalıdır, - istinad edərək,

terrorizmin maliyyələşdirilməsinin bütövlükdə beynəlxalq birliyi ciddi narahat etdiyini nəzərə alaraq,

beynəlxalq terrorizm hərəkətlərinin sayının və ağırlığının terrorçuların əldə edə bildiyi maliyyələşmədən asılı olduğunu vurğulayaraq,

həmçinin mövcud çoxtərəfli hüquqi sənədlərdə bu cür maliyyələşmənin konkret nəzərdən keçirilmədiyini qeyd edərək,

terrorizmin maliyyələşdirilməsinə yol verilməməsi, eləcə də onu törədən şəxslərin təqib edilməsi və cəzalandırılması yolu ilə terrorizmlə mübarizə sahəsində səmərəli tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi işində dövlətlər arasında beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsinin qəti zəruriliyinə əmin olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Konvensiyanın məqsədləri üçün:

1. "Vəsaitlər" əldə edilmə üsulundan asılı olmayaraq, istənilən növ, hiss edilən və ya hiss edilməyən, daşınar və ya daşınmaz aktivlərini, həmçinin bank kreditləri, yol çekləri, bank çekləri, poçt göndərişləri, səhmlər və qiymətli kağızlar, istiqrazlar, veksellər, akkreditivlər də daxil olmaqla, lakin bunlarla məhdudlaşmayaraq, bu cür aktivlərə olan hüquqları və ya onlarda iştirakı təsdiq edən hər hansı formada, o cümlədən də elektron və ya rəqəmli formada hüquqi sənədləri və ya aktları bildirir.

2. "Dövlət və ya hökumət obyekti" dövlət nümayəndələrinin, hökumət üzvlərinin, qanunvericilik və ya məhkəmə orqanı təmsilçilərinin və yaxud dövlətin və ya hər hansı digər dövlət orqanı və ya idarəsinin vəzifəli şəxsləri ya da qulluqçularının yaxud hökumətlərarası təşkilatın qulluqçularının və ya vəzifəli şəxslərinin öz xidməti vəzifələrini yerinə yetirmələri ilə bağlı istifadə etdikləri və ya məşğul etdikləri hər hansı bir daimi və ya müvəqqəti obyekti yaxud nəqliyyat vasitəsini bildirir.

3. "Daxilolmalar" 2-ci maddədə göstərilən cinayətin törədilməsi yolu ilə bilavasitə və ya bilavasitə alınmış və yaxud əldə edilmiş istənilən vəsaiti bildirir.

Maddə 2

1. İstənilən şəxs, əgər o:

a) əlavədə sadalanan müqavilələrdən birinin tətbiq sahəsinə və əlavədəki tərifə uyğun olaraq cinayət sayılan hər hansı bir əməlin;

b) silahlı münaqişə vəziyyətində hərbi əməliyyatlarda fəal iştirak etməyən hər hansı bir mülki şəxsin və ya istənilən digər şəxsin ölümünə və ya ona ağır bədən xəsarəti yetirilməsinə yönəldilmiş istənilən digər əməlin, - bu cür əməlin məqsədi onun səciyyəsi və ya konteksti ilə bağlı olaraq, əhalini qorxutmaqdan və ya hökuməti yaxud beynəlxalq təşkilatı hər hansı hərəkəti etməyə yaxud onu etməkdən çəkinməyə məcbur etməkdən ibarət olduqda, - törədilməsi üçün tam

və ya qismən istifadə edilməsi niyyəti ilə yaxud da istifadə ediləcəyini başa düşdüyü halda istənilən metodlarla, bilavasitə və ya bilavasitə, qeyri-qanuni olaraq və qəsdən vəsait verir və ya bu vəsaitin yığılmasını həyata keçirirsə, bu Konvensiyanın mənasına görə cinayət törətmiş olur.

2. a) öz təsdiqnamələrini yaxud qəbul etmə, təsdiq etmə və ya qoşulma haqqında sənədlərini saxlanılmaq üçün təhvil verdikdən sonra, əlavədə sadalanan müqavilələrdən birində iştirakçı tərəf olmayan dövlət bəyan edə bilər ki, bu Konvensiyanın həmin iştirakçı dövlətə tətbiqi zamanı belə hesab edilir ki, bu müqavilə 1-ci bəndin (a) yarımbəndində adı çəkilən əlavəyə daxil edilməmişdir.

Depozitarini bu fakt barəsində xəbərdar edən həmin iştirakçı dövlət üçün bu müqavilə qüvvəyə minəndən dərhal sonra belə bəyanat qüvvəsini itirir;

b) iştirakçı dövlət əlavədə sadalanan müqavilələrdən birinin iştirakçısı olmasını dayandırdıqda bu maddədə nəzərdə tutulmuş qaydada həmin müqaviləyə dair bəyanat verə bilər.

3. Hər hansı bir əməlin 1-ci bənddə göstərilən cinayəti təşkil etməsi üçün, vəsaitlərin faktik olaraq, 1-ci bəndin (a) yaxud (b) yarımbəndlərində göstərilən cinayətin törədilməsi üçün istifadə edilmiş olması məcburi deyil.

4. İstənilən şəxs, əgər o, bu maddənin 1-ci bəndində göstərilən cinayətlərdən hər hansı birini törətməyə cəhd göstərirsə, həmçinin cinayət etmiş olur.

5. İstənilən şəxs, əgər:

a) bu maddənin 1-ci və ya 4-cü bəndlərində göstərilən cinayətlərdən hər hansı birinin törədilməsində iştirakçı qismində iştirak edirsə;

b) bu maddənin 1-ci və ya 4-cü bəndlərində göstərilən cinayətlərdən hər hansı birinin törədilməsi məqsədi ilə digər şəxsləri təşkil edir və ya onlara rəhbərlik edirsə;

c) bu maddənin 1-ci və ya 4-cü bəndlərində göstərilən bir və ya bir neçə cinayətin ümumi məqsədlə fəaliyyət göstərən bir qrup şəxs tərəfindən törədilməsinə şərait yaradırsa, - bu cür yardım bilərəkdən və:

i) ya bu maddənin 1-ci bəndində göstərilən cinayətlərdən birinin törədilməsini nəzərdə tutan fəaliyyət və ya məqsədlərlə qrupun cinayətkar fəaliyyətini və ya cinayətkar məqsədlərini dəstəkləmək üçün;

ii) ya da bu maddənin 1-ci bəndində göstərilən cinayətlərdən birini törətmək üçün qrupun məqsədini dərk etməklə göstərilmişsə, - həmçinin cinayət etmiş olur.

Maddə 3

Cinayətin bir dövlətdə törədildiyi, ehtimal edilən cinayətkar bu dövlətin vətəndaşı olduğu və həmin dövlətin ərazisində olduğu halda və heç bir başqa dövlət bu Konvensiyanın 7-ci

maddəsinin 1-ci və ya 2-ci bəndlərinə müvafiq olaraq öz yurisdiksiyasını həyata keçirmək üçün əsaslara malik olmadığı hallarda bu Konvensiya tətbiq edilmir, lakin bu, müvafiq şəraitdə belə hallara 12-18-ci maddələrin müddəalarının tətbiqini istisna etmir.

Maddə 4

Hər bir iştirakçı dövlət:

a) 2-ci maddədə göstərilən cinayətlərin, özünün daxili hüququna müvafiq olaraq cinayət sayılması üçün;

b) bu cinayətlərə görə onların ağırlıq dərəcəsi nəzərə alınmaqla uyğun cəzaların müəyyən edilməsi üçün zəruri ola bilən tədbirləri görür.

Maddə 5

1. Hər bir iştirakçı dövlət onun ərazisində olan yaxud onun qanunlarına əsasən təsis edilmiş hüquqi şəxsi, bu hüquqi şəxsin idarə edilməsi üçün məsul olan yaxud ona nəzarəti həyata keçirən, öz rəsmi vəzifəsində çıxış edən fiziki şəxs tərəfindən 2-ci maddədə göstərilən cinayət törədildiyi halda məsuliyyətə cəlb

etmək üçün zəruri tədbirləri görür. Bu cür məsuliyyət cinayət, mülki və ya inzibati xarakterli ola bilər.

2. Belə məsuliyyət bu cinayətləri törətmiş fiziki şəxslərin cinayət məsuliyyətinə xələl gətirmədən yaranır.

3. Hər bir iştirakçı dövlət, xüsusilə, yuxandakı 1-ci bəndə uyğun məsuliyyət daşıyan hüquqi şəxslərə qarşı səmərəli, müvafiq və təsirli cinayət, mülki-hüquqi yaxud inzibati sanksiyalar tətbiq edilməsini təmin edir. Belə sanksiyalara maliyyə sanksiyaları da daxil ola bilər.

Maddə 6

Hər bir iştirakçı dövlət bu Konvensiyanın qüvvəsinin şamil edildiyi cinayət əməllərinə siyasi, fəlsəfi, ideoloji, irqi, etnik, dini və digər analoji səciyyəli hər hansı mülahizəyə görə heç bir halda haqq qazandırılmamasını təmin etməkdən ötrü zəruri ola biləcək tədbirləri, o cümlədən müvafiq hallarda daxili qanunvericilik sahəsində tədbirlər görür.

Maddə 7

1. Hər bir iştirakçı dövlət 2-ci maddədə göstərilən cinayətlərlə onun yurisdiksiyasının şamil edilməsi üçün zəruri ola biləcək tədbirləri aşağıdakı hallarda görür:

a) cinayət bu dövlətin ərazisində törədildikdə;

b) cinayət bu dövlətin bayrağı altında üzən yaxud cinayətin baş verdiyi zaman bu dövlətin qanunlarına müvafiq qeydiyyatı olan uçuş aparatında törədildikdə;

c) cinayəti bu dövlətin vətəndaşı törətdikdə.

2. İştirakçı dövlət həmçinin hər hansı belə cinayətə öz yurisdiksiyasını aşağıdakı hallarda şamil edə bilər:

a) cinayət 2-ci maddənin 1-ci bəndinin (a) və ya (b) yarımbəndlərində göstərilən cinayətin bu dövlətin ərazisində yaxud onun vətəndaşlarından birinə qarşı törədilməsinə yönəldildikdə yaxud belə cinayət onun nəticəsi olduqda;

b) cinayət 2-ci maddənin 1-ci bəndinin (a) və ya (b) yarımbəndlərində göstərilən cinayətlərin, bu dövlətin diplomatik və ya konsulluq nümayəndəliyinin binası da daxil olmaqla, göstərilən dövlətin xaricdəki dövlət və ya hökumət obyektinə qarşı törədilməsinə yönəldildikdə yaxud belə cinayət onun nəticəsi olduqda;

c) cinayət 2-ci maddənin 1-ci bəndinin (a) və ya (b) yarımbəndlərində göstərilən cinayətlərin bu dövləti hər hansı hərəkəti etməyə və ya etməkdən çəkinməyə məcbur etmək cəhdi ilə törədilməsinə yönəldildikdə yaxud belə cinayət onun törədilməsinə gətirib çıxardıqda;

d) cinayəti adətən bu dövlətin ərazisində yaşayan, vətəndaşlığı olmayan şəxs törətdikdə;

e) cinayət bu dövlətin hökumətinin istismarında olan hava gəmisində törədildikdə.

3. Bu Konvensiyanın təsdiq edilməsi, qəbul edilməsi, bəyənilməsi və ya ona qoşulma zamanı hər bir iştirakçı dövlət Birləşmiş Millətlər Təşkilatının Baş katibini 2-ci səndə müvafiq olaraq, öz yurisdiksiyasını şamil etməsi barədə xəbərdar edir. Hər hansı dəyişiklik olduqda, müvafiq iştirakçı dövlət bu barədə dərhal Baş katibə xəbərdarlıq edir.

4. Hər bir iştirakçı dövlət həmçinin 2-ci maddədə göstərilən cinayətlərə onun yurisdiksiyasının şamil edilməsi üçün zəruri olan tədbirləri aşağıdakı hallarda görür: cinayəti törətdiyi ehtimal edilən şəxs onun ərazisində olduqda və həmin dövlət onu 1-ci və ya 2-ci bəndlərə müvafiq olaraq, öz yurisdiksiyasını müəyyən etmiş heç bir iştirakçı dövlətə vermədikdə.

5. Birdən artıq iştirakçı dövlət 2-ci maddədə göstərilən cinayətlərdən birinə öz yurisdiksiyasını şamil etmək iddiasında olduqda, müvafiq iştirakçı dövlətlər öz hərəkətlərini, xüsusən də cinayət təqibi qaydası və qarşılıqlı hüquqi yardım sahəsində hərəkətlərini lazımi qaydada əlaqələndirməyə çalışmalıdırlar.

6. Ümumi beynəlxalq hüquq normalarına xələl gətirmədən bu Konvensiya, iştirakçı dövlətin öz daxili hüququna müvafiq olaraq müəyyən etdiyi hər hansı cinayət yurisdiksiyasının həyata keçirilməsi imkanını istisna etmir.

Maddə 8

1. Hər bir iştirakçı dövlət 2-ci bənddə göstərilən cinayətlərin törədilməsi məqsədi ilə istifadə olunan və ya ayrılmış hər hansı vəsaitin, həmçinin belə cinayətlər nəticəsində əldə edilmiş daxilolmaların mümkün müsadirə məqsədləri ilə müəyyənləşdirilməsi, aşkarlanması, təcrid edilməsi və ya onların üzərinə həbs qoyulması üçün öz daxili hüquq prinsiplərinə müvafiq olaraq zəruri tədbirlər görür.

2. Hər bir iştirakçı dövlət 2-ci bənddə göstərilən cinayətlərin törədilməsi məqsədi ilə istifadə olunmuş və ya ayrılmış vəsaitlərin və belə cinayətlər nəticəsində əldə edilmiş daxilolmaların müsadirəsi üçün öz daxili hüquq prinsiplərinə müvafiq olaraq lazımi tədbirləri görür.

3. Hər bir müvafiq iştirakçı dövlət bu maddədə nəzərdə tutulmuş müsadirə nəticəsində alınan vəsaitlərin müntəzəm olaraq və ya hər bir konkret halda digər dövlətlərlə bölüşdürülməsi haqqında sazişlərin bağlanması məsələsini nəzərdən keçirə bilər.

4. Hər bir iştirakçı dövlət elə mexanizmlər yaratmaq imkanlarını nəzərdən keçirir ki, onların köməyi ilə, bu maddədə nəzərdə tutulmuş müsadirə nəticəsində alınan vəsaitlərdən 2-ci maddənin 1 -ci bəndinin (a) və ya (b) yarımbəndlərində göstərilən cinayətlərin qurbanlarına və ya onların ailə üzvlərinə kompensasiyaların ödənilməsi üçün istifadə olunsun.

5. Bu maddənin müddəalarının tətbiqi vicdanlı üçüncü şəxslərin hüquqlarına riayət olunması şərti ilə həyata keçirilir.

Maddə 9

1. 2-ci maddədə göstərilən cinayəti törətmiş və ya törətdiyi ehtimal edilən şəxsin onun ərazisində ola biləcəyi barədə informasiya almış müvafiq iştirakçı dövlət bu informasiyada göstərilən faktların təhqiqatı üçün özünün daxili qanunvericiliyinə müvafiq qaydada tələb edilə bilən tədbirləri görür.

2. Şəraitin bunun üçün əsas verdiyini yəqin etdikdən sonra, cinayəti törətmiş və ya törətdiyi ehtimal olunan şəxsin ərazisində olduğu iştirakçı dövlət bu şəxsin cinayət təqibi məqsədləri üçün iştirakının və ya verilməsinin təmin edilməsi üzrə öz daxili qanunvericiliyinə müvafiq tədbirləri görür.

3.İT-Cİ bənddə göstərilən tədbirlərin şamil edildiyi istənilən şəxsin aşağıdakı hüquqları vardır:

a) vətəndaşı olduğu və ya başqa yolla onun hüquqlarını qorumağa ixtiyarlı olan dövlətin ən yaxın müvafiq təmsilçisi ilə, yaxud əgər bu şəxs vətəndaşlığı olmayan şəxsdirsə, - adətən ərazisində yaşadığı dövlətin təmsilçisi ilə təxirə salmadan əlaqə yaratmaq;

b) bu dövlətin təmsilçisinin ona baş çəkməsi;

c) (a) və (b) yarımbəndlərinə müvafiq olaraq öz hüquqları barədə məlumatlandırılmaq.

4. 3-cü bənddə göstərilən hüquqlar cinayəti törətmiş və ya törətdiyi ehtimal edilən şəxsin ərazisində olduğu dövlətin qanunlarına və qərarlarına müvafiq qaydada həyata keçirilməli, belə

bir müddəa nəzərə alınmalıdır ki, xatırlanan qanun və qərarlar bu maddənin 3-cü bəndinə uyğun hüquqların verildiyi məqsədlərə tam nail olmaq imkanını təmin etməlidir.

5. 3-cü və 4-cü bəndlərin müddəaları, 7-ci maddənin 1-ci bəndinin (b) yarımbəndinə və 2-ci bəndinin (b) yarımbəndinə uyğun olaraq yurisdiksiya iddiasında olan istənilən iştirakçı dövlətin hüququna - Beynəlxalq Qırmızı Xaç Komitəsindən cinayəti törətdiyi ehtimal olunan şəxslə əlaqə saxlamağı və ona baş çəkməyi xahiş etmək hüququna xələl gətirmir.

6. İştirakçı dövlət bu maddəyə müvafiq olaraq şəxsi həbsə aldıqdan sonra 7-ci maddənin 1-ci və ya 2-ci bəndlərinə uyğun yurisdiksiyalarını müəyyən etmiş iştirakçı dövlətləri bilavasitə və ya Birləşmiş Millətlər Təşkilatının Baş katibi vasitəsi ilə, təxirə salmadan xəbərdar edir və əgər məqsədəuyğun hesab edirsə, bu şəxsin həbsdə olması faktı və onun saxlanması üçün əsas verən hallar barədə istənilən digər maraqlı iştirakçı dövlətlərə xəbərdarlıq bildirir. 1-ci bəndə uyğun olaraq təhqiqat aparan dövlət adı çəkilən iştirakçı dövlətlərə təhqiqatın nəticələri barədə operativ məlumat verir və öz yurisdiksiyasını həyata keçirmək niyyətində olub-olmadığını göstərir.

Maddə 10

1. Cinayət törətmiş və ya törətdiyi ehtimal olunan şəxsin ərazisində olduğu iştirakçı dövlət 7-ci maddənin şamil edildiyi hallarda, əgər həmin şəxsi vermirsə, hər hansı bir istisna edilmədən və cinayətin həmin dövlətin ərazisində törədilib-törədilməməsindən asılı olmayaraq, lüzumsuz ləngimələrə yol vermədən bu dövlətin qanunvericiliyinə uyğun olaraq araşdırma aparılması yolu ilə məhkəmə təqibi məqsədləri üçün işi özünün səlahiyyətli orqanlarına verməyə borcludur. Səlahiyyətli orqanlar bu dövlətin qanunlarına uyğun olaraq, hər hansı ağır cinayət törədilməsi halında olduğu qaydada qərar qəbul edirlər.

2. İştirakçı dövlətin daxili qanunvericiliyi ona öz vətəndaşlarından birini yalnız həmin şəxsin məhkəmə araşdırması və ya işə məhkəmədə baxılması, - bu

nun üçün həmin şəxsin verilməsi və ya təslim edilməsi tələb olunarsa və həmin dövlət, eləcə də bu şəxsin verilməsi barədə vəsatət qaldırmış dövlət belə variantla və ağlabatan saya biləcəkləri digər şərtlərlə razıdırlarsa, - nəticəsində çıxarılmış hökm üzrə cəza çəkməsi üçün həmin dövlətə qaytarılması şərti ilə təhvil verməsinə və ya hər hansı başqa yolla təslim etməsinə imkan verdiyi bütün hallarda 1-ci benddə göstərilən vəzifələrin yerinə yetirilməsi üçün bu cür şərtləndirilmiş təhvil vermə və ya təslim etmə kifayət edər.

Maddə 11

1. 2-ci maddədə göstərilən cinayətlər cinayətkarların verilməsi ilə nəticələnən cinayətlər qismində bu Konvensiya qüvvəyə minənədək cinayətkarların verilməsi haqqında hər hansı iştirakçı dövlətlər arasında bağlanmış istənilən müqaviləyə daxil edilməli olan cinayətlər sayılır. İştirakçı dövlətlər belə cinayətləri cinayətkarların verilməsi ilə nəticələnən cinayətlər qismində, sonradan həmin dövlətlər arasında bağlanılacaq cinayətkarların verilməsinə dair bütün müqavilələrə daxil etməyi öhdələrinə götürürlər.

2. Cinayətkarın verilməsini müqavilənin olması ilə şərtləndirən iştirakçı dövlət onunla cinayətkarın verilməsi haqqında müqaviləsi olmayan başqa bir iştirakçı dövlətdən cinayətkarın verilməsi barədə xahiş aldıqda, sorğu edilən iştirakçı dövlət, 2-ci maddədə göstərilən cinayətlərlə bağlı cinayətkarın verilməsi üçün bu Konvensiyam öz mülahizəsinə görə hüquqi əsas hesab edə bilər. Cinayətkarın verilməsi sorğu edilən dövlətin qanunvericiliyində nəzərdə tutulmuş digər şərtlərə riayət etməklə həyata keçirilir.

3. Cinayətkarın verilməsini müqavilənin olması ilə şərtləndirməyən iştirakçı dövlətlər 2-ci maddədə göstərilən cinayətləri, öz aralarındakı münasibətlərdə sorğu edilən dövlətin qanunvericiliyində nəzərdə tutulmuş şərtlərə riayət etməklə cinayətkarın verilməsi ilə nəticələnən cinayətlər hesab edirlər.

4. 2-ci maddədə göstərilən cinayətlər zəruri hallarda iştirakçı dövlətlər tərəfindən cinayətkarın verilməsi üçün təkcə törədildiyi yerdə deyil, həm də 7-ci maddənin 1-ci və 2-ci bəndlərinə müvafiq olaraq, öz yurisdiksiyasını müəyyən etmiş dövlətlərin də ərazisində törədilmiş cinayətlər hesab edilir.

5. İştirakçı dövlətlər arasında cinayətkarların verilməsi haqqında bütün müqavilə və razılaşmaların müddəaları 2-ci maddədə göstərilən cinayətlərlə bağlı iştirakçı dövlətlər arasındakı münasibətlərdə yalnız bu Konvensiya ilə bir araya sığmayan hədlərdə dəyişdirilmiş sayılır.

Maddə 12

1. İştirakçı dövlətlər 2-ci maddədə göstərilən cinayətlər üzrə cinayət təhqiqatı, cinayətkarların təqibi və ya verilməsi prosedurları ilə bağlı bir-birlərinə maksimum yardım, o cümlədən onlarda olan və araşdırma üçün zəruri sayılan dəlillərin alınmasında kömək göstərirlər.

2. İştirakçı dövlətlər bank sirrinə istinad etməklə qarşılıqlı hüquqi yardım barədə xahişləri rədd edə bilməzlər.

3. Sorğu göndərən tərəf təhqiqatın, cinayət təqibinin və ya məhkəmə araşdırmasının keçirilməsi üçün xahişdə göstərilənlərdən başqa, sorğu edilən tərəfin verdiklərind0n başqa, digər informasiya və dəlilləri sorğu edilən tərəfin qabaqcadan razılığı olmadan vermir və onlardan istifadə etmir.

4. Hər bir iştirakçı dövlət 5-ci maddəyə müvafiq olaraq, cinayət məsuliyyətinin, mülki və ya inzibati məsuliyyətin müəyyən edilməsi üçün zəruri olan informasiya və ya dəlilləri digər iştirakçı dövlətlərlə bölüşməkdən ötrü mexanizmlərin yaradılması məsələsini nəzərdən keçirə bilər.

5. İştirakçı dövlətlər 1-ci və 2-ci bəndlər üzrə öz öhdəliklərini qarşılıqlı hüquqi yardım və informasiya mübadiləsi haqqında onlar arasında mövcud ola bilən hər hansı müqavilə və ya digər razılaşmalara uyğun olaraq yerinə yetirirlər. Belə müqavilə və ya razılaşmalar olmadıqda, iştirakçı dövlətlər özlərinin daxili qanunvericiliklərinə müvafiq olaraq bir-birlərinə yardım göstərirlər.

Maddə 13

2-ci maddədə göstərilən cinayətlərdən heç biri cinayətkarların verilməsi və ya qarşılıqlı hüquqi yardım məqsədləri üçün vergilərlə bağlı cinayət sayılmır. İştirakçı dövlətlər cinayətkarın verilməsi və ya qarşılıqlı hüquqi yardım haqqında xahişi yalnız o əsasla rədd edə bilməz ki, belə xahiş vergilərlə bağlı cinayətə aiddir.

Maddə 14

2-ci maddədə göstərilən cinayətlərdən heç biri iştirakçı dövlətlər arasında cinayətkarın verilməsi və ya qarşılıqlı hüquqi yardım məqsədləri üçün siyasi cinayət və ya siyasi cinayətlə bağlı cinayət yaxud da siyasi motivlərə görə törədilmiş cinayət hesab edilmir. Bunun nəticəsində belə cinayətlə bağlı cinayətkarın verilməsi və ya qarşılıqlı hüquqi yardım haqqında xahiş yalnız bu əsasla rədd edilə bilməz ki, o, siyasi cinayətə və ya siyasi cinayətlə bağlı cinayətə yaxud da siyasi motivlərə görə törədilmiş cinayətə aiddir.

Maddə 15

Bu Konvensiyada heç bir müddəa, - əgər sorğu edilən iştirakçı dövlətin belə güman etməyə tutarlı dəlilləri varsa ki, 2-ci maddədə göstərilən cinayətlərlə bağlı cinayətkarın verilməsi və ya belə cinayətlərlə əlaqədar qarşılıqlı hüquqi yardım haqqında xahişin məqsədi həmin şəxsi irqinə, dini etiqadına, vətəndaşlığına, etnik mənşəyinə və ya siyasi əqidəsinə görə təqib etmək yaxud cəzalandırmaqdır və ya bu xahişin yerinə yetirilməsi həmin səbəblərdən hər hansı birinə görə həmin şəxsin vəziyyətinə ziyan vura bilər, - hər hansı bir şəxsi təhvil vermək və ya qarşılıqlı yardım göstərmək barədə məcburi öhdəlik kimi şərh olunmamalıdır.

Maddə 16

1. Bir iştirakçı dövlətdə həbsdə olan və ya həbsxanada cəza çəkən və başqa bir dövlətə gətirilməsi onun şəxsiyyətinin müəyyən edilməsi, ifadə verməsi yaxud 2-ci maddədə göstərilən cinayətlərlə bağlı təhqiqat və ya cinayət təqibi üçün dəlillərin alınmasında digər yardımın göstərilməsi üçün tələb olunursa, o, aşağıdakı şərtlərə riayət edilməklə həmin dövlətə verilə bilər:

a) həmin şəxs tam informasiya aldıqdan sonra sərbəst olaraq buna öz razılığını verirsə;

b) hər iki dövlətin səlahiyyətli hakimiyyət orqanları bu dövlətlərin məqbul saya biləcəkləri şərtlərlə razılığa gələ bilmişlərsə.

2. Bu maddənin məqsədləri üçün:

a) şəxsin verildiyi dövlət, - əgər bu şəxsi verən dövlət başqa bir şey xahiş etməmiş və digər sanksiya verməmişdirsə, - verilmiş şəxsi həbs altında saxlamağa ixtiyarlıdır və borcludur;

b) şəxsin verildiyi dövlət həmin şəxsin əvvəlcə onu vermiş dövlətin sərəncamına qaytarılması üzrə öz öhdəliyini, qabaqcadan razılaşdırıldığı kimi və ya hər iki dövlətin səlahiyyətli hakimiyyət orqanlarının başqa qaydada razılaşdırdığı kimi, təxirə salmadan yerinə yetirir;

c) şəxsin verildiyi dövlət bu şəxsi verən dövlətdən onun qaytarılması üçün proseduru yenidən başlamağı tələb etməməlidir;

d) verildiyi dövlətdə həbs altında saxlanıldığı müddət onu təhvil vermiş dövlətdə çəkdiyi cəza müddətinin üstünə gəlinir.

3. Bu və ya digər şəxsi bu maddəyə müvafiq olaraq verməli olan iştirakçı dövlətin razılığı olmadan həmin şəxs, vətəndaşlığından asılı olmayaraq, - onu verən dövlətin ərazisindən yola düşməsinədək onun barəsində nəzərdə tutulan hərəkətlərlə və ya çıxarılmış hökmlərlə bağlı təqib edilməməli və ya həbs altında saxlanılmamalıdır və verildiyi dövlətin ərazisində şəxsi azadlığının hər hansı şəkildə məhdudlaşdırılmasına məruz qalmamalıdır.

Maddə 17

Həbsə alınmış yaxud barəsində istənilən digər tədbirlər görülmüş və ya bu Konvensiyaya müvafiq olaraq barəsində araşdırma aparılan istənilən şəxsə ədalətli münasibət, o cümlədən ərazisində olduğu dövlətin qanunvericiliyinə və insan haqları sahəsində beynəlxalq standartlar da daxil olmaqla, beynəlxalq hüququn tətbiq edilən müddəalarına uyğun olaraq, bütün hüquq və təminatlar təmin edilməlidir.

Maddə 18

1. İştirakçı dövlətlər 2-ci maddədə göstərilən cinayətlərin qabaqlanmasında həyata keçirilməsi mümkün olan bütün tədbirləri görmək, xüsusən onların öz ərazisində və ya həmin ərazinin hüdudlarından kənarda bu cinayətlərin törədilməsinə onların müvafiq ərazilərində hazırlıq aparılmasının qarşısını almaq və ya buna mane olmaq üçün zərurət olduqda özlərinin daxili qanunvericiliklərində dəyişikliklər etmək yolu ilə əməkdaşlıq edirlər. O cümlədən aşağıdakı tədbirləri:

a) onların ərazilərində 2-ci maddədə göstərilən cinayətləri bilərəkdən təşviq edən, qızışdıran, təşkil edən və ya törədən şəxslərin yaxud təşkilatların qanunsuz fəaliyyətini qadağan edən tədbirləri;

b) maliyyə əməliyyatlarının yerinə yetirilməsində iştirak edən maliyyə idarələrini və digər təşkilatları, onların daimi və ya təsadüfi müştərilərinin, eləcə də xeyrinə hesablar açılmış müştərilərinin kimliyinin müəyyən edilməsi üçün öz sərəncamında olan ən səmərəli tədbirləri görməyə, qeyri-adi və ya şübhəli

əməliyyatlara xüsusi diqqət yetirməyə və cinayət fəaliyyəti ilə bağlılığı güman edilən əməliyyatlar barədə məlumat verməyə məcbur edən tədbirləri görürlər. Bu məqsədlə iştirakçı dövlətlər:

i) sahiblərinin və ya benifisiarlarının kimliyi müəyyən edilməmiş yaxud müəyyən edilə bilməyən hesabların açılmasını qadağan edən qaydaların qəbul olunması və belə idarələrin bu cür əməliyyatların həqiqi iştirakçılarının şəxsiyyətini yoxlamasını təmin edən tədbirlərin görülməsi;

ii) hüquqi şəxslərin kimliyinin müəyyən edilməsi sahəsində, zəruri olduqda, maliyyə idarələrinə dövlət qeydiyyat orqanından, müştəridən yaxud hər ikisindən müşt0rinin hüquqi şəxs kimi qeydiyyatdan keçməsinin sübutlarını, müştərinin adı, hüquqi forması, ünvanı, hüquqi şəxsin rəhbərləri və bu hüquqi şəxsin adından öhdəliklər götürülməsi üzrə səlahiyyətləri tənzimləyən müddəalar barədə məlumatları əldə etmək yolu ilə müştərinin hüquqi statusunun və strukturunun yoxlanılması üzrə tədbirlərin görülməsi üçün tələblər irəli sürülməsi;

iii) maliyyə idarələri üzərinə bütün mürəkkəb, qeyri-adi iri əməliyyatlar və açıq-aşkar iqtisadi və ya aydın qanuni səbəbi olmayan əməliyyatların qeyri-adi dinamikası barədə operativ surətdə səlahiyyətli hakimiyyət orqanlarına, - əgər bu idarələr informasiyanın açıqlanması ilə bağlı istənilən məhdudiyyətlərin pozulmasına görə cinayət məsuliyyətindən və ya mülki məsuliyyətdən çəkinmədən öz şübhələri barədə vicdanla məlumat verirlərsə, - məlumat vermək vəzifəsinin qoyulması;

iv) maliyyə idarələrinə həm daxili, həm də beynəlxalq əməliyyatlar üzrə bütün zəruri sənədləri ən azı 5 il müddətində saxlamaq tələblərinin irəli sürülməsi imkanlarını Öyrənirlər.

2. İştirakçı dövlətlər daha sonra 2-ci maddədə göstərilən cinayətlərin qarşısının alınmasında:

a) pul göndərişlərini həyata keçirən bütün agentliklərin işinin, o cümlədən, məsələn, onların lisenziyalaşdırılması işinin müşahidə edilməsi üzrə tədbirlər görülməsi;

b) nağd vəsaitlərin və adsız dövriyyə sənədlərinin sərhəddən, lazımi qaydada, informasiyadan istifadə üzrə təminatlara ciddi riayət edilməklə və kapitalın hərəkət sərbəstliyini hər hansı bir formada məhdudlaşdırmadan fiziki keçirilməSinin aşkar edilməsi və ya izlənilməsi sahəsində real həyata keçirilə bilən tədbirlərin görülməsi imkanını nəzərdən keçirərək, əməkdaşlıq edirlər.

3. İştirakçı dövlətlər 2-ci maddədə göstərilən cinayətlərin qabaqlanmasında, daha sonra öz daxili qanunvericiliklərinə uyğun olaraq dəqiq və yoxlanılmış məlumatların mübadiləsi və 2-ci maddədə göstərilən cinayətlərin törədilməsinin qabaqlanması məqsədi ilə, zəruri hallarda görülən inzibati və digər tədbirlərin əlaqələndirilməsi yolu ilə, xüsusən də:

a) 2-ci maddədə göstərilən cinayətlərin bütün aspektləri barədə informasiyanın mühafizəli və operativ mübadiləsinə kömək etmək məqsədi ilə onların səlahiyyətli idarələri və xidmətləri arasında rabitə kanallarının yaradılması və fəaliyyətinin təmin edilməsi;

b) 2-ci maddədə göstərilən:

i) belə cinayətlərdə əli olması barədə əsaslı şübhələr doğuran adamların şəxsiyyəti, olduğu yer və məşğuliyyət növü;

ii) belə cinayətlərin törədilməsi ilə əlaqəsi olan maliyyə vəsaitlərinin yerləşdirilməsi ilə bağlı cinayətlərə dair təhqiqatların aparılmasında bir-birləri ilə tərəfdaşlıq yolu ilə əməkdaşlıq edirlər.

4. İştirakçı dövlətlər Beynəlxalq Cinayət Polisi Təşkilatı (İnterpol) vasitəsi ilə informasiya mübadiləsi edə bilərlər.

Maddə 19

Ərazisində ehtimal edilən cinayətkarın cinayət təqibinə məruz qaldığı iştirakçı dövlət öz daxili qanunvericiliyinə və ya tətbiq edilən müvafiq prosedurlara uyğun olaraq, araşdırmanın yekun nəticələri haqqında Birləşmiş Millətlər Təşkilatının Baş katibinə xəbər verir, Baş katib bu informasiyanı digər iştirakçı dövlətlərə göndərir.

Maddə 20

İştirakçı dövlətlər özlərinin bu Konvensiyadan irəli gələn öhdəliklərini elə yerinə yetirirlər ki, bu, dövlətlərin suveren bərabərlik və ərazi bütövlüyü prinsiplərinə və digər dövlətlərin daxili işlərinə qarışmamaq prinsipinə cavab versin.

Maddə 21

Bu Konvensiyada heç nə beynəlxalq hüquqa, xüsusən də Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin məqsədlərinə, beynəlxalq humanitar hüquqa və başqa müvafiq konvensiyalara uyğun olaraq, dövlətlərin və ayrı-ayrı şəxslərin digər hüquqlarına, öhdəliklərinə və vəzifələrinə toxunmur.

Maddə 22

Bu Konvensiyada heç nə iştirakçı dövlətə başqa bir iştirakçı dövlətin ərazisində öz yurisdiksiyasını və başqa iştirakçı dövlətin daxili qanunvericiliyinə uyğun olaraq onun hakimiyyət dairələrinin müstəsna səlahiyyətinə aid funksiyaları həyata keçirmək hüququ vermir.

Maddə 23

1. Əlavəyə:

a) bütün dövlətlərin iştirakı üçün açıq olan;

b) qüvvəyə minmiş;

c) bu Konvensiyanın üzvü olan ən azı iyirmi iki dövlətin təsdiq etdiyi, qəbul etdiyi, bəyəndiyi və ya qoşulduğu müqavilələri əlavə etmək yolu ilə dəyişikliklər etmək olar.

2. Bu Konvensiya qüvvəyə mindikdən sonra istənilən iştirakçı dövlət bu cür düzəliş təklif edə bilər. Düzəliş edilməsi barədə istənilən təklif depozitariyə yazılı şəkildə göndərilir. Depozitari 1-ci bəndin tələblərinə cavab verən bütün təkliflər barədə iştirakçı dövlətlərin hamısını xəbərdar edir və təklif olunan düzəlişi qəbul edib-etməmək barədə onların rəyini soruşur.

3. Təklif olunan düzəlişin yayılmasından sonra 180 gündən gec olmayaraq iştirakçı dövlətlərdən üçdə birinin yazılı məlumat verməklə həmin düzəlişin əleyhinə çıxdığı hallardan başqa, təklif edilən düzəliş qəbul edilmiş hesab olunur.

4. Əlavəyə qəbul edilmiş düzəliş iyirmi ikinci təsdiqnamənin yaxud belə düzəlişi qəbul etmək və ya bəyənmək haqqında sənədin saxlanılmaq üçün təhvil verilməsindən 30 gün sonra saxlanılmaq üçün belə sənədi təhvil vermiş bütün iştirakçı dövlətlər üçün qüvvəyə minir. Düzəlişi təsdiq edən, qəbul edən və ya bəyənən hər bir iştirakçı dövlət üçün iyirmi ikinci təsdiqnamənin saxlanılmaq üçün təhvil verilməsindən sonra düzəliş belə iştirakçı dövlətin öz təsdiqnaməsini yaxud qəbul etmə və ya bəyənmə sənədini saxlanılmaq üçün təhvil verməsindən sonra otuzuncu gün qüvvəyə minir.

Maddə 24

1. İki və ya daha çox iştirakçı dövlət arasında bu Konvensiyanın təfsiri və ya tətbiqi ilə bağlı yaranan, ağlabatan müddət ərzində danışıqlar yolu ilə nizama salına bilməyən istənilən mübahisə iştirakçı dövlətlərdən birinin xahişi ilə arbitraja verilir. Əgər arbitraj haqqında xahişlə müraciət edildiyi gündən etibarən altı ay ərzində tərəflər onun təşkili barədə razılığa gələ bilməsələr, bu tərəflərdən hər hansı biri mübahisəni Məhkəmə Statutuna müvafiq olaraq, ərizə ilə müraciət etməklə Beynəlxalq Məhkəməyə verə bilər.

2. Hər bir dövlət bu Konvensiyanı imzalayarkən, təsdiq edərkən, qəbul edərkən, bəyənərkən yaxud ona qoşularkən özünü 1-ci bəndin müddəaları ilə bağlı hesab etmədiyikii bəyan edə bilər. Digər iştirakçı dövlətlər belə bir qeyd-şərt bildirmiş hər hansı iştirakçı dövlətə münasibətdə 1-ci bəndin müddəaları ilə bağlı olmayacaqlar.

3.  2-ci bəndə müvafiq olaraq qeyd-şərt bildirmiş hər hansı dövlət istənilən vaxt Birləşmiş Millətlər Təşkilatının Baş katibini xəbərdar etməklə bu qeyd-şərti ləğv edə bilər.

Maddə 25

1.  Bu Konvensiya 2000-ci il yanvarın 10-dan 2001-ci il dekabrın 31-dək Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatının mərkəzi idarələrində bütün dövlətlərin imzalanması üçün açıqdır.

2.  Bu Konvensiya təsdiq edilməli və ya qəbul edilməli yaxud bəyənilməlidir. Təsdiqnamələr yaxud qəbul etmə və ya bəyənmə haqqında sənədlər saxlanılmaq üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilir.

3.  Bu Konvensiya istənilən dövlətin qoşulması üçün açıqdır. Qoşulma barədə sənədlər saxlanılmaq üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilir.

Maddə 26

1. Bu Konvensiya iyirmi iki təsdiqnamənin yaxud qəbuletmə, bəyənmə və ya qoşulma haqqında sənədin saxlanılmaq üçün Birləşmiş Millətlər Təşkilatının

Baş katibinə təhvil verilməsindən sonra otuzuncu gün qüvvəyə minir.

2. Bu Konvensiyanı təsdiq edən, qəbul edən, bəyənən və ya ona qoşulan hər bir dövlət üçün iyirmi iki təsdiqnamənin yaxud qəbuletmə, bəyənmə və ya qoşulma haqqında sənədlərin

saxlanılmaq üçün təhvil verilməsindən sonra Konvensiya bu dövlətin öz təsdiqnaməsinin yaxud qəbuletmə, bəyənmə və ya qoşulma haqqında sənədinin saxlanılmaq üçün təhvil verilməsindən sonra otuzuncu gün qüvvəyə minir.

Maddə 27

1. İstənilən iştirakçı dövlət Birləşmiş Millətlər Təşkilatının Baş katibinə yazılı xəbərdarlıq göndərməklə bu Konvensiyanı denonsasiya edə bilər.

2. Denonsasiya Birləşmiş Millətlər Təşkilatının Baş katibinin xəbərdarlığı aldığı tarixdən bir il keçdikdən sonra qüvvəyə minir.

Maddə 28

Bu Konvensiyanın ingilis, ərəb, ispan, Çin, rus və fransız dillərindəki mətnləri eyni qüvvəyə malik olan əsli saxlanılmaq üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilir. Baş katib bu Konvensiyanın təsdiq edilmiş surətlərini bütün dövlətlərə göndərir.

Bunun təsdiqi olaraq, özlərinin müvafiq hökumətləri tərəfindən lazımi qaydada səlahiyyət verilmiş aşağıda imza edənlər bu Konvensiyanı imzaladılar. Konvensiya 2000-ci il yanvarın 10-dan Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatının mərkəzi idarələrində imzalanmaq üçün açıqdır.

ƏLAVƏ

1. Hava gəmilərinin qanunsuz zəbt edilməsinə qarşı mübarizə haqqında Konvensiya, 1970-ci il dekabrın 16-da Haaqada imzalanmışdır.

2. Mülki aviasiyanın təhlükəsizliyinə qarşı yönəldilən qanunsuz hərəkətlər əleyhinə mübarizə haqqında Konvensiya, 1971-ci il sentyabrın 23-də Monrealda imzalanmışdır.

3. Beynəlxalq müdafiədən istifadə edən şəxslərə, o cümlədən diplomatik agentlərə yönəlmiş cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya, 1973-cü il dekabrın 14-də Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası qəbul etmişdir.

4. Adamların girov götürülməsinə qarşı mübarizə haqqında Beynəlxalq Konvensiya, 1979-cu il dekabrın 17-də Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası qəbul etmişdir.

5. Nüvə materialının fiziki mühafizəsi haqqında Konvensiya, 1980-ci il martın 3-də Vyanada qəbul edilmişdir.

6. "Mülki aviasiyanın təhlükəsizliyinə qarşı yönəldilən qanunsuz hərəkətlərlə mübarizə haqqında Konvensiyanı tamamlayan Beynəlxalq mülki aviasiyaya xidmət göstərən aeroportlarda qanunsuz zorakılıq hərəkətlərİ əleyhinə mübarizə haqqında Protokol, 1988-ci il fevralın 24-də Monrealda imzalanmışdır.

7. Dəniz gəmiçiliyinin təhlükəsizliyinə qarşı yönəldilmiş qanunsuz hərəkətlərlə mübarizə haqqında Konvensiya, 1988-ci il martın 10-da Romada imzalanmışdır.

8. Kontinental şelfdə yerləşən stasionar platformaların təhlükəsizliyi əleyhinə yönəldilmiş qanunsuz hərəkətlərlə mübarizə haqqında Protokol, 1988-ci il martın 10-da Romada imzalanmışdır.

9. Bomba terrorizmi ilə mübarizə haqqında Beynəlxalq Konvensiya, 1997-ci il dekabrın 15-də Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası qəbul etmişdir.